# 2019-cu il ölkəmizdə «Nəsimi ili»dir

## Cəhalətin qurbanı





***Bu il klassik Azərbaycan Poeziyasında fərqli yaradıcılıq yolunun əsasını qoymuş böyük şair, filosof Nəsiminin (Seyid Əli ibn Seyid Məhəmməd) anadan olmasının 650 illiyi tamam olur. Məlum olduğu kimi bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ili Azərbaycanda «Nəsimi ili» elan etmişdir. «Nəsimi ili» ni böyük söz ustasının adına layiq başa vurmaq üçün ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunda da rəngarəng tədbirlər keçirilir.***

Nəsimi yaradıcılığına həsr olunmuş növbəti tədbir bu günlərdə Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin və İsmayıl bəy Qutqaşınlının xatirə ev muzeyinin kollektivləri tərəfindən birlikdə keçirilmişdir. Tədbirdə Nəsiminin həyat və fəaliyyətinin müxtəlif fraqmentləri ədəbi-bədii kompozisiya şəklində təqdim olunmuşdur.

Orijinallığı ilə seçilən tədbiri muzeyinin müdiri Çimnaz Müzəffərova açmışdır O, 2019-cu ilin «Nəsimi ili» elan edilməsi barədə ölkə Prezidentinin sərəncamını xatırlatmış, bununla əlaqədar muzeydə həyata keçirilən tədbirlər barədə məlumat vermişdir. Nəsimi şeirə, söz sənətinə yeni məzmun, yeni nəfəs gətirmişdir. Çox təəsüf ki, özünü dindar kimi qələmə verən cahillər bütün varlığı ilə Allaha sığınan, Allahı dünyada hər şeyin yaradıcısı kimi qəbul edən Nəsimini dinsiz adlandıraraq doğma evindən, obasından, Vətənindən didərgin salmışdılar. Nəsimi didərgin həyatı keçirsə də, Vətəndən uzaqda yaşamağa məcbur edilsə də onun şeirləri, qəzəlləri Azərbaycanın hər bir güşəsində dillər əzbəri idi. Bu da ona qısqanclıqla yanaşan üzdəniraq şairlərin qəzəbini daha da artırırdı. Ancaq heç bir şey Nəsimiyə olan el məhəbbətinə mane ola bilməmişdir. Aradan altı əsr yarım vaxt keçsə də Nəsimiyə, onun yaradıcıllığına olan el məhəbbəti azalmamış, əksinə zaman keçdikcə çoxalmışdır.

Cəhalətpərəstlərin fitvası ilə Nəsimi edam edilsə də bu onun şan-şöhrətini daha da artıraraq əbədiyaşar etmişdir.

Qədirbilən xalqımız Nəsiminin adını həmişə yüksək tutub, ona ehtiramla yanaşıb və bu gün də belədir. Ölkə Prezidentinin sərəncamı ilə 2019-cu ilin «Nəsimi ili» elan edilməsi bu ehtiramın bariz nümunəsidir.

Sonra söz Qəbələ şəhər 2 nömrəli məktəbin şagirdlərinə verilmişdir. Onlar Nəsimi şeirlərini, qəzəllərini tədbir iştirakçıları qarşısında ustalıqla ifa etmişlər.

Tanınmış Azərbaycan yazıçısı İsa Hüseynovun «Məhşər» romanının motivləri əsasında çəkilmiş «Nəsimi» filmindən ayrı-ayrı fraqmentlər şagirdlər tərəfindən canlandırılmışdır.

Tədbirin gedişi göstərdi ki, təşkilatçılar, tədbiri hazırlayanlar, şagirdlər Nəsimi yaradıcılığına böyük hörmət və sevgi ilə yanaşıblar. Bu işdə sinif rəhbərləri Lalə Cəfərovanın, Samirə Məmmədlinin, ədəbiyyat müəllmi Təhminə Mirzəliyevanın böyük zəhməti olduğu göz qabağında idi. Qeyd etdimiz filmdən ayrı ayrı fraqmentləri ifa edən şagirdlərin hamısının, xüsusən Nəsimi rolunu canlandıran Qadir Səmədlinin çıxışları tədbir iştitrakçıları tərəfindən dəfələrlə alqışlarla mükafatlandırılmışdır.

Muzeyin rəhbərliyi tədbirin təşkilində fəal iştirakına görə şəhər 2 nömrəli məktəbin müəllim və şagird kollektivinə «Təşəkkürnamə» təqdim etmişdir.

«Nəsimi ili» nə həsr olunmuş bu maraqlı tədbirə Qəbələ şəhər 2 nömrəli məktəbin müəllim və şagirdləri ilə bərabər valideynlər, rayon ziyalılarının, yazarlarının bir qrupu, ictimaiyyət nümayəndələri dəvət olunmuşdu. Qələm sahibləri Nəsimiyə həsr etdikləri şeirlərini oxumaqla yanaşı, təgdbirin təşkilatçılarına və iştirakçılarına öz təşəkkürlərini bildirmişlər.

**Qüdrət CƏMALƏDDİNOĞLU.**
**Səhrab Umuyev (foto),**
**"Qəbələ"**

## Fəlsəfi şeirlər ustası

Heydər Əliyev Mərkəzində böyük şair İmadəddin Nəsiminin 650 il-



lik yubileyinə həsr olunan tədbir keçirilib.Tədbiri giriş sözü ilə mərkəzin direktor əvəzi Kəmalə Qasımova açaraq Azərbaycan xalqının ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş dahi şairin yaradıcılığından danışıb, onun Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus yer tutduğunu vurğulayıb. Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Sərəncamını diqqətə çatdıran Kəmalə Qasımova 50 il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə Nəsiminin 600 illik yubileyinin keçirildiyini, ötən illər ərzində böyük şairin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atıldığını, onun ədəbiyyatda, incəsənətdə parlaq obrazlarının yaradıldığını bildirib.

Tarix-diyarşünaslıq muzeyinin əməkdaşı İlhamə Seyidova çıxış edərək əsl adı Seyid Əli olan İmadəddin Nəsiminin 1369-cu ildə Şamaxı şəhərində, dövrünün tanınmış ziyalısı Seyid Məhəmmədin ailəsində dünyaya göz açdığını bildirib.

Qeyd edib ki, ilk təhsilini Şamaxıda alan Nəsimi, hələ gənc yaşlarından elmə böyük həvəs göstərmiş, klassik Şərq və yunan fəlsəfəsi, ədəbiyyat, astronomiya, məntiq elmlərini dərindən mənimsəmiş, islamın əsaslarını, Quranı öyrənmişdir. Bu səbəbdən də Seyid Əliyə İmadəddin, yəni "dinin dayağı" ləqəbi verilmişdir.

Dahi Nəsiminin məşhur "Sığmazam" qəzəlindən beytlər söyləyən natiq bütün şeirləri kimi bu misralarda da çox dərin bir fəlsəfi fikir olduğunu bildirib.

Azərbaycan kino sənətində 1973-cü ildə çəkilən "Nəsimi" bədii filminin xüsusi yer aldığı, 1979-cu ildə Bakıda mütəfəkkir şairin heykəlinin ucaldıldığı ştirakçılara çatdırılıb.

Tədbirin sonunda "Nəsimi" bədii filmindən fraqmentlər nümayiş olunub.

**"Qəbələ"**

## Ali dəyərlər carçısı

Qəbələ şəhər 3 nömrəli tam orta məktəbində böyük şair, mütəfəkkir Nəsiminin anadan



olmasının 650 illiyi və "Nəsimi ili" münasibətilə növbəti ədəbi-bədii tədbir keçirilmişdir.

Öncə məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Elza Kərimova türk dünyasının böyük söz ustadı, filosof Nəsiminin yaşadığı dövr və yaradıcılığı barədə tədbir iştirakçılarına məlumat vermişdir. O bildirmişdir ki, İmadəddin Nəsimi yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ən qüdrətli şairlərindən biri, türkdilli poeziyada fəlsəfi şeirin yaradıcısı olmuş sənətkarlardandır. Sözsüz ki, şairin ən böyük xidmətlərindən biri də poeziyada Azərbaycan ədəbi dilini əvvəlki dövrlərdə görünməmiş dərəcədə inkişaf etdirməsidir.

Nəsimişünas professor Yaşar Qarayevin dediyi kimi, "Ədəbiyyat(-poeziya) Nəsiminin şəxsində ilahi mənşəyini kəşf etmişdir". Çox təəsüf ki, dövrünün bir çox fanatik din xadimləri və cəhalətpərəstlər Nəsimi yaradıcılığını başa düşməmiş, şairi küfrdə (Allaha qarşı olmaqda) günahlandıraraq edama məhkum etmişlər.

Aradan 6 əsr yarım vaxt keçsə də Nəsimi yaradıcılığı öz gözəlliyini, insanlara təsir gücünü itirməmişdir.

Sonra söz şagirdlərə verilmişdir. Onların söylədiyi şeirlər iştirakçıları Nəsimi poeziyası sehrinə qərq etmişdir.

Tədbir "Nəsimi" filminin nümayişi ilə davam etmişdir.

Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova və məktəbin direktoru Ədilə Əliyeva tədbirin təşkilatçıları olan müəllimlərə, kitabxana işçilərinə və şagirdlərə təşəkkür etmişlər.

**Zəhra ALXASLI,**
**məktəbin şagirdi.**